**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Asəf Məmmədovun və digərlərinin 29 dekabr 2009-cu il tarixli 225 saylı, vətəndaş Məmişov Baladayı Şirin oğlunun 29 dekabr 2009-cu il tarixli 227 saylı, vətəndaş Abbasov Asif Gülməmməd oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 229 saylı, vətəndaş Muradov Rauf Abdulla oğlunun 29 dekabr 2009-cu il tarixli 232 saylı, vətəndaş Babaşov Rasim İsrayil oğlunun 29 dekabr 2009-cu il tarixli 235 saylı, vətəndaş Rəşid İbadov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 240 saylı, vətəndaş Yasər Həmidov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 241 saylı, vətəndaş Rövşən Abbasovun 29 dekabr 2009-cu il tarixli 245 saylı, vətəndaş Ələkbərov Oqtay Abbas oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 248 saylı, vətəndaş Əliyev Elşad Ərşad oğlunun 29 dekabr 2009-cu il tarixli 250 saylı, vətəndaş Ramazanov Ədalət İsabala oğlunun 29 dekabr 2009-cu il tarixli 251 saylı, vətəndaş Bayramova Sevinc Əhməd qızı və Şamilov Şirinbala Ənsəf oğlunun 29 dekabr 2009-cu il tarixli 253 saylı, vətəndaş Fətullayev Əzizbala Atakişi oğlunun 29 dekabr 2009-cu il tarixli 254 saylı, vətəndaş Canqayev Əyyub Məmmədtahir oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 259 saylı, vətəndaş İbrahimov Tahir Əli oğlunun 29 dekabr 2009-cu il tarixli 261 saylı, vətəndaş Ağayev Cavanşir Siyab oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixlı 262 saylı, vətəndaş Şirinov İlham Kamil oğlunun 29 dekabr 2009-cu il tarixli 263 saylı, vətəndaş Arif Həşimov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 266 saylı, vətəndaş Əliyev Xanış Hacıəli oğlunun 29 dekabr 2009-cu il tarixli 269 saylı, vətəndaş Abdullayev Zaur Əjdər oğlunun 29 dekabr 2009-cu il tarixli 270 saylı, vətəndaş Tofiq Seyidəhmədov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 271 saylı, vətəndaşlar Rüstəmov Araz Şəmistan oğlu və Hacıyev Azər Əli oğlunun 29 dekabr 2009-cu il tarixli 274 saylı, vətəndaş Əyyubov Rəfail Yunis oğlunun 29 dekabr 2009-cu il tarixli 275 saylı , vətəndaş Əşrəf Şirinov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 278 saylı, vətəndaş Məmmədəli Hümmətovun 29 dekabr 2009-cu il tarixli 280 saylı, vətəndaş Hacıəliyev Fikrət Fəqan oğlunun 29 dekabr 2009-cu il tarixli 281 saylı, vətəndaş Əmirov Rabil Zeyniş oğlunun 29 dekabr 2009-cu il tarixli 301 saylı, vətəndaş Babaşova Fəridə Abdurahman qızının 30 dekabr 2009-cu il tarixli 310 saylı, vətəndaş Əhədov Fuad Abbas oğlunun 30 dekabr 2009-cu il tarixli 318 saylı, vətəndaş Məhəmməd Omarovun 30 dekabr 2009-cu il tarixli 324 saylı, vətəndaşlar Sadıqov Yolçu Əsgərxan oğlu və Qasımov Nazir Nüsrət oğlunun 30 dekabr 2009-cu il tarixli 326 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 63 saylı Sabirabad seçki dairəsi üzrə Qaralar bələdiyyəsinin üzvlüyünə namizədlər Məmişov Baladayı Şirin oğlu və Babaşov Rasim İsrayil oğlu, 80 saylı İmişli-Beyləqan seçki dairəsi üzrə Dünyamalılar bələdiyyəsinin üzvlüyünə namizəd Abbasov Asif Gülməmməd oğlu və digərləri, 112 saylı Qax seçki dairəsi üzrə Qorağan bələdiyyəsinin üzvlüyünə namizəd Rövşən Abbasov və digərləri, 76 saylı Lənkəran-Astara seçki dairəsindən vətəndaş Ramazanov Ədalət İsabala oğlu, 13 saylı Əzizbəyov birinci seçki dairəsi üzrə Gürgən-Pirallahı bələdiyyəsinin üzvlüyünə namizədlər Bayramova Sevinc Əhməd qızı və Şamilov Şirinbala Ənsəf oğlu, 110 saylı Zaqatala seçki dairəsi üzrə Car bələdiyyəsinin üzvlüyünə namizəd Canqayev Əyyub Məmmədtahir oğlu və digərləri, 95 saylı Tərtər seçki dairəsindən bələdiyyə üzvlüyünə namizədlər İbrahimov Tahir Əli oğlu, Sadıqov Yolçu Əsgərxan oğlu və Qasımov Nazir Nüsrət oğlu, 78 saylı Lerik seçki dairəsindən vətəndaş Əliyev Xanış Hacıəli oğlu, 80 saylı İmişli-Beyləqan seçki dairəsindən vətəndaşlar Əyyubov Rəfail Yunis oğlu, Əmirov Rabil Zeyniş oğlu və Əhədov Fuad Abbas oğlu, 53 saylı Quba-Qusar seçki dairəsindən vətəndaş Muradov Rauf Abdulla oğlu, 52 saylı Quba seçki dairəsindən bələdiyyə üzvlüyünə namizəd Ələkbərov Oqtay Abbas oğlu və digərləri, 113 saylı Şəki şəhər seçki dairəsindən vətəndaş Məmmədəli Hümmətov, 118 saylı Ağdam kənd seçki dairəsi üzrə Üçoğlan bələdiyyəsinin üzvlüyünə namizəd Rəşid İbadov və digərləri, 52 saylı Quba seçki dairəsi üzrə Rustov bələdiyyəsinin üzvlüyünə namizəd Tofiq Seyidəhmədov və digərləri, 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsindən vətəndaş Şirinov İlham Kamil oğlu, 114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə Baş Göynük bələdiyyəsinin üzvlüyünə namizəd Babaşova Fəridə Abdurahman qızı, 115 saylı Şəki kənd ikinci seçki dairəsindən vətəndaş Hacıəliyev Fikrət Fəqan oğlu, 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsindən vətəndaş Yasər Həmidov və digərləri, Asəf Məmmədov və digərləri, 85 saylı Şamaxı seçki dairəsindən vətəndaş Fətullayev Əzizbala Atakişi oğlu, 75 saylı Lənkəran-Masallı seçki dairəsindən vətəndaş Ağayev Cavanşir Siyab oğlu, 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən vətəndaş Abdullayev Zaur Əjdər oğlu, 81 saylı Beyləqan seçki dairəsindən vətəndaş Əşrəf Şirinov və digərləri, 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə Yasamal

bələdiyyəsinin üzvlüyünə namizəd Əliyev Elşad Ərşad oğlu, 45 saylı Abşeron seçki dairəsindən vətəndaş Arif Həşimov və digərləri, 99 saylı Şəmkir kənd seçki dairəsindən vətəndaşlar Rüstəmov Araz Şəmistan oğlu və Hacıyev Azər Əli oğlu, 112 saylı Qax seçki dairəsindən vətəndaş Məhəmməd Omarov Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, bəzi seçki məntəqələrində səsvermə günü müxtəlif səpkidə qanun pozuntularına yol verildiyini bildirərək qanunla müəyyən olunmuş qaydada araşdırmaların aparılmasını xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən araşdırılaraq bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciətlərdə göstərilən faktların dairə seçki komissiyaları tərəfindən araşdırılmalı olduğunu nəzərə alaraq, şikayətlər aidiyyəti üzrə araşdırılması və tədbir görülməsi üçün müvafiq seçki dairələrinin dairə seçki komissiyalarına göndərilməlidir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1 və 31.1.2-ci maddələrinə əsasən seçki dairəsinin ərazisində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarına riayət olunmasına nəzarəti, Seçki Məcəlləsinin qaydalarının pozulması ilə bağlı şikayətlərə baxıb öz səlahiyyətləri daxilində qərarların qəbul edilməsini dairə seçki komissiyaları həyata keçirir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. Vətəndaş Məmişov Baladayı Şirin oğlu və Babaşov Rasim İsrayil oğlunun müraciəti 63 saylı Sabirabad I seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Əyyubov Rəfail Yunis oğlu, Əmirov Rabil Zeyniş oğlu, Əhədov Fuad Abbas oğlu, Abbasov Asif Gülməmməd oğlu və digərlərinin müraciətləri 80 saylı İmişli-Beyləqan seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Rövşən Abbasov və digərlərinin müraciəti 112 saylı Qax seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Ramazanov Ədalət İsabala oğlunun müraciəti 76 saylı Lənkəran-Astara seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Bayramova Sevinc Əhməd qızı və Şamilov Şirinbala Ənsəf oğlunun müraciəti 13 saylı Əzizbəyov birinci seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Canqayev Əyyub Məmmədtahir oğlu və digərlərinin müraciəti 110 saylı Zaqatala seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş İbrahimov Tahir Əli oğlu, Sadıqov Yolçu Əsgərxan oğlu və Qasımov Nazir Nüsrət oğlunun müraciətləri 95 saylı Tərtər seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Əliyev Xanış Hacıəli oğlunun müraciəti 78 saylı Lerik seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Muradov Rauf Abdulla oğlunun müraciəti 53 saylı Quba-Qusar seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Ələkbərov Oqtay Abbas oğlu və digərlərinin müraciəti 52 saylı Quba seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Məmmədəli Hümmətovun müraciəti 113 saylı Şəki şəhər seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Rəşid İbadov və digərlərinin müraciəti 118 saylı Ağdam kənd seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Tofiq Seyidəhmədov və digərlərinin müraciəti 52 saylı Quba seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Şirinov İlham Kamil oğlunun müraciəti 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Babaşova Fəridə Abdurahman qızının müraciəti 114 saylı Şəki kənd birinci seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Hacıəliyev Fikrət Fəqan oğlunun müraciəti 115 saylı Şəki kənd ikinci seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Yasər Həmidov və digərlərinin, Asəf Məmmədov və digərlərinin müraciəti 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Fətullayev Əzizbala Atakişi oğlunun müraciəti 85 saylı Şamaxı seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Ağayev Cavanşir Siyab oğlunun müraciəti 75 saylı Lənkəran-Masallı seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Abdullayev Zaur Əjdər oğlunun müraciəti 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Əşrəf Şirinov və digərlərinin müraciəti 81 saylı Beylıqan seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Əliyev Elşad Ərşad oğlunun müraciəti 17 saylı Yasamal üçüncü seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Arif Həşimov və digərlərinin müraciəti 45 saylı Abşeron seçki dairəsinin dairə

seçki komissiyasına, vətəndaş Rüstəmov Araz Şəmistan oğlu və Hacıyev Azər Əli oğlunun müraciəti 99 saylı Şəmkir kənd seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Məhəmməd Omarovun müraciəti 112 saylı Qax seçki dairəsinin dairə seçki komissiyasına aidiyyatı üzrə baxılması üçün göndərilsin.

2. Qərarın icrası ilə əlaqədar görülmüş tədbirlər barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına məlumat verilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Natiq Məmmədov

Üzvlər Fuad Cavadov

Ramiz İbrahimov

Validə Kazımova

Qabil Orucov

Tofiq Həsənov

İlham Məmmədov

Nizami Nadirov

Azər Tağıyev

Tamam Cəfərova

Rövşən İsmayılov

Oktay Hümbətli